# Mərhəmət və şəfqət zəlzələdən güclüdür

**Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində minlərlə insanın həlak olması, yaralanması və evsiz qalması ilə əlaqədar Azərbaycandan qardaş ölkəyə yardım göstərilməsi davam edir.**

Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin tapşırığı əsasında YAP Mərkəzi Aparatı tərəfindən təbii fəlakətdən zərər çəkmiş şəxslərə humanitar yardım məqsədilə mal və avadanlıqlar, o cümlədən 45 ədəd generator, 150 ədəd elektrik qızdırıcısı, uşaqlar, qadınlar və kişilər üçün çoxlu sayda isti geyim dəstləri, yataq ləvazimatları, qış ayaqqabıları alınaraq qardaş Türkiyəyə göndərilməsi təmin edilib.

* * *

Azərbaycan Ağsaqqallar Şurası da Türkiyəyə kömək aksiyasına qoşulub. Heydər Əliyev Fondu tərəfindən təşkil edilən yardım kampaniyası üçün Əl Oyunları Sarayındakı yardım toplama məntəqəsinə Şuras tərəfindən yataq dəstləri (yorğan, döşək, yastıq), həm uşaqlar, həm də böyüklər üçün nəzərdə tutulmuş isti geyimlər və təbii fəlakətdən zərər çəkmiş bölgələrdə insanların hazırda ehtiyac duyduğu digər əşyalar təhvil verilib.

* * *

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Ordusunun hərbi qulluqçuları və onların ailə üzvlərinin qardaş ölkədə zərərçəkənlərə yardım etmələri üçün müvafiq hərbi hissələrdə xüsusi məntəqələr yaradılıb. Gətirilən geyimlər və ərzaq məhsulları toplanıb, çeşidlənərək bağlamalara yığıldıqdan sonra yük avtomobili vasitəsilə Türkiyəyə yola salınıb.

* * *

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC Türkiyədə zəlzələdən zərərçəkənlər üçün Azərbaycanda başlanan genişmiqyaslı yardım kampaniyasına dəstək verir. Dünəndən ölkənin poçt şöbələrində yardımların qəbuluna və göndərilməsinə başlanılıb. Göndərişlərə görə heç bir xidmət haqqı alınmır

* * *

Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin könüllüləri zəlzələ zonasına göndərmək üçün geyim, quru qida, uşaq bezləri, kişi və qadın gigiyena vasitələri, uşaq yeməkləri toplayıblar. Yardım kampaniyası fevralın sonunadək davam edəcək.

* * *

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) rəhbərliyi və üzvləri qardaş ölkə Türkiyədə böyük insan itkisinə səbəb olan zəlzələ nəticəsində köməyə ehtiyacı olan insanlar üçün yardım kampaniyası həyata keçirib.

Aksiya çərçivəsində yataq, yorğan-döşək, qış geyimləri, konservləşdirilmiş qidalar, eləcə də uşaq qidaları, uşaq bezləri, dərman preparatları, gigiyenik vasitələr, əl fənəri, generator, poverbank kimi vacib olan əşyalar alınaraq növünə və istifadəsinə uyğun xüsusi bağlamalarda qablaşdırılıb və Heydər Əliyev adına İdman Sarayındakı toplama mərkəzinə təhvil verilib.

* * *

Auditorlar Palatasının kollektivi səfirlik binasının önünə əklil qoyub, zəlzələ qurbanlarının əziz



xatirəsi ehtiramla yad edib.

* * *

"PAŞA Holding" və onun törəmə şirkətləri zəlzələdən zərər çəkmiş şəxslərə dəstək məqsədilə Türkiyənin iki önəmli yardım fonduna – AHBAP-ın və Türkiyənin Daxili İşlər Nazirliyinin Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyinin (AFAD) hər birinə 500 min dollar olmaqla ümumilikdə 1 milyon dollar ianə edib.

* * *

Təbii fəlakət nəticəsində zərər çəkmiş şəxslərə dəstək məqsədilə "Kapital Bank" tərəfindən yaradılan "Qırmızı Ürəklər" Fondu "Türkiyə üçün bir ürək olaq!" adlı yardım vəsaitinin toplanması aksiyasına start verib.

Aksiya çərçivəsində bankın əməkdaşları, ölkədə və xaricdə yaşayan soydaşlarımızın, həmçinin müxtəlif şirkətlərin ianələri hesabına cəmi bir gün ərzində 200 min manatdan çox vəsait toplanıb. Aksiyaya dəstək olmaq üçün https://redhearts.az saytı, Birbank rəqəmsal bankı, eləcə də "Kapital Bank"ın ödəniş terminalları vasitəsilə "Qırmızı Ürəklər" Fonduna ianə edərək, bu təşəbbüsə siz də qoşula bilərsiniz.

* * *

Geologiya və Geofizika İnstitutunda Türkiyədə baş vermiş zəlzələyə həsr olunmuş ümumrespublika elmi seminarı keçirilib.

İnstitutun baş direktoru akademik Akif Əlizadə bildirib ki, Azərbaycanda çoxşaxəli seysmoloji tədqiqatların kompleks şəkildə (digər təşkilatları cəlb etməklə) aparılması üçün dövlət proqramı hazırlamaq istiqamətində çalışmaq və bu vahid normativ sənəd əsasında hərəkət etmək zəlzələ risklərinə qarşı bu gün ən real tədbir ola bilər.

* * *

Mikrobiologiya İnstitutunun kollektivi qardaş türk xalqına yardım məqsədilə quru yeməklər, konservləşdirilmiş qidalar və isti geyimlərdən ibarət bağlamalar hazırlayaraq müvafiq toplama məntəqəsinə göndərib.

* * *

Bakı Dövlət Universitetinin (BDU) kollektivi Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar qardaş ölkənin Azərbaycandakı səfirliyini ziyarət edib. Səfirlik binasının önünə əklil və gül dəstələri qoyulub, zəlzələ qurbanlarının əziz xatirəsi ehtiramla yad olunub. Qardaş ölkəyə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyasında BDU-nun kollektivi və tələbələri könüllü olaraq fəal iştirak edirlər.

* * *

Azərbaycan Memarlıq və İnşaat Universitetində bu günədək 397 tələbə yardım kampaniyasına qoşulub. 50 tələbə isə öz müraciəti əsasında paytaxtın toplama məntəqələrində könüllü olaraq



fəaliyyət göstərir.

* * *

Şamaxı Astrofizika Rəsədxanasının əməkdaşları zərərçəkənlərə maddi yardım göstərilməsi barədə qərar qəbul ediblər.

* * *

AMEA-nın Mərkəzi Elmi Kitabxanası da Türkiyədə zəlzələdən zərər çəkmiş insanlara yardım kampaniyasına qoşulub. Əməkdaşların bu kampaniyaya könüllü şəkildə qoşulması nəticəsində 2534 manat məbləğində ianə toplanıb.



* * *

Bakının "Neftçi" klubu Türkiyədə baş vermiş zəlzələdən əziyyət çəkən insanlara yardım göndərib. Klubun bazasında humanitar qutuların daşınmasında futbolçular da iştirak ediblər.

* * *

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının mərkəzi aparatı və rayon təşkilatları ümumrespublika yardım aksiyasında fəal iştirak edir. Təşkilatın bir çox üzvü maddi yardımla yanaşı, zəlzələdən zərərçəkənlərə məişət əşyaları, yataq dəstələri və digər vasitələrlə də kömək göstərirlər.

* * *

AFFA Türkiyədə baş vermiş zəlzələdən əziyyət çəkən insanlar üçün maddi yardım göndərib. Bundan əlavə, Türkiyə Futbol Federasiyasının (TFF) bank hesabına 500 min Türkiyə lirəsi məbləğində maliyyə vəsaiti köçürülüb.

* * *

**Şamaxı.** Böyükdən-kiçiyə hər kəs qardaş Türkiyədə zəlzələdən zərərçəkmişlərə yardım etmək üçün Şamaxı Olimpiya Mərkəzində təşkil edilən yardım toplanma məntəqəsinə gəlir, türk qardaşlarımıza dəstək olur. Onlar isti geyimləri, əlcəkləri, corabları, yataq dəstlərini, quru ərzaqları, təmizləyici vasitələri təyin olunmuş məntəqədə çeşidləyirlər. Yardımlar toplanıldıqdan sonra yük avtomobillərinə yığılır. Son 3 gündə 8 yük maşını Bakıya göndərilib.

**Ağdaş.** Qardaş ölkəyə göndərilməsi üçün rayonda toplanan humanitar yardım Bakıya gətirilib. Bu yardıma 40 generator, 120 qızdırıcı soba, 150 yorğan, 150 döşək, 150 ədyal, 150 balış və külli miqdarda isti geyim daxildir. Ağdaş sakinləri iki yük avtomobilindən çox əşya toplayıblar. Bu humanitar yardımlar bundan sonra da davam etdiriləcək.

**Çöyçay.** Rayondan Türkiyədə zəlzələdən ziyan və əziyyət çəkmiş insanlara yardım məqsədilə 100 isitmə sobası, 20 generator (3,15 Kv) və yataq dəstləri Bakıya göndərilib.

**Quba.** Sakinlərin fəal iştirak etdiyi kampaniya çərçivəsində indiyədək bir neçə yerdə yardımlar toplanaraq Bakı şəhərində müəyyən edilmiş məntəqələrə yola salınıb.

***"Xalq qəzeti"***